# 500-cü istifadəçi qeydiyyata alındı

Bu yaxınlarda “GS1 Azərbaycan” ştrixkod istifadəçiləri cəmiyyətində Lənkəran «Digah» Meyvə-tərəvəz emalı zavodu öz məhsullarına ştrixkod aldı. Bu, artıq Azərbaycanda öz məhsullarını unikal əmtəə ştrixkodları ilə markalayan 500-cü müəssisədir. «Digah» zavodunun 300 işçisi hər gün 500 ton müxtəlif məhsul: tomat pastası, marinadlar, feyxoa və heyva kompotları istehsal edir. Yaxın rayonların 400-dən artıq fermeri zavodu xammalla təchiz edir. Məhsullar həm daxili bazarlara, həm MDB ölkələrinə həm də Kanada, Suriya, Dubay bazarlarına göndərilir.

## *Bizim arayış*



*Əmtəə ştrixkodları məhsulun dünyanın istənilən ölkəsinə göndərilməsinə imkan verir. Artıq çoxdandır ki, ştrixli kodlaşdırma qeyri-adi bir şey sayılmır. Demək olar ki, bütün xarici məhsullar ştrixkodlarla markalanır.*
*Bir çox ticarət müəssisələrində ştrixkodların oxunması və markalanması üçün texnika quraşdırılır.*
*Məhsulların kütləvi istehsalının ştrixkodlarına olan əsas tələb ştrixkod nömrələrinin unikallığı, yəni dünyanın heç bir yerində eyni ştrixkod nömrəsi ilə məhsulun olmamasıdır.*
*Dünyanın 108 ölkəsini birləşdirən beynəlxalq qeyri- kommersiya GS1 (Global Standard 1) Assosiasiyasının Baş ofisi Brüsseldə (Belçika) yerləşir. Onun tərkibinə daxil olan milli təşkilat hər bir ölkədə əmtəə ştrixkod nömrələrinin verilməsi hüququna malik olan yeganə təşkilatdır.*
*Azərbaycanda bu Assosiasiyanı “GS1 Azərbaycan” Cəmiyyəti təmsil edir.*
*Azərbaycanda məhsul istehsal edən müəssisələrə və onların məhsullarına 476 prefiksi ilə başlayan 13 rəqəmli nömrə verilir.*




*Bu gün Azərbaycanda 15000-ə yaxın ştrixkodla markalanmış çeşidli məhsul növü istehsal olunur. Yüksək alıcı kütləsinə və geniş satış həcminə malik ticarət müəssisələri məhsulun təchizatçılarını təchiz etdiyi hər bir malı unikal ştrixkodla markalaşdırmağa məcbur edir.*
*Avtomatik identifikasiya texnologiyaları arasında ştrixli kodlaşdırma texnologiyası daha çox populyarlıq əldə edib. Bu, hər şeydən əvvəl, ştrixli kodlaşdırma texnologiyasının sadəliyi və sərf olunan materialların dəyərinin aşağı olması ilə əlaqədardır: ştrixkodun etiketə və ya qutuya köçürülməsi maqnit, radiotezlikli və elektron nişanların köçürülməsindən daha ucuz başa gəlir.*



*Nəzərə almaq lazımdır ki, ildən-ilə daha çox istehsalçı istehsal etdiyi məhsulun üzərinə ştrixkod vurulmasına çalışır və buna görə də ştrixkodla markalanmış məhsulların sayı artır.*